https://doi.org/10.36719/2706-6185/43/29-34

**Sevda İsmayılova**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-4450-6153
sevdaismayilova@rambler.ru

# 1930-cu illərin repressiyaları və Bakı Dövlət Universitetinin tələbələri (1933-1936)

**Xülasə**

1930-cu illər repressiyaları Azərbaycanın milli-mənəvi dəyərlərinə böyük zərbə vurdu. Ali məktəblər içərisində BDU-da repressiyaya məruz qalmış tələbələrin sayı digər ali məktəblərdən çox olmuşdu. Məqalədə müstəqil fikrini söyləyən tələbələrin aqibətinin "demokratik və humanist" sovet rejiminin ədalətsiz siyasətinin qurbanı olması, onların sosial mənşələrini gizlətmək, əksinqilabçı-trotskiçi-zinovyevçı fəaliyyət, partiya və hökumət rəhbərini, xüsusən Stalini nüfuzdan salmaq və s. kimi ittihamlara məruz qalması, BDU-dan, komsomol sıralarından xaric edilmələri, azadlıqdan məhrum edilmələri, müxtəlif cəzalara məhkum edilmələri məsələsi araşdırılır. Universitet rektorlarının (xüsusən Balabəy Həsənbəyov (O özü də 1937-ci ildə repressiyaya məruz qaldı)) tələbələr haqqında rayonların Xüsusi Şöbələri, partiya, icraiyyə komitələrinə və digər ünvanlara göndərilən sorğuların təşkilatçısı olmaları kimi hallar şərh edilir. Sovet rejiminin Azərbaycan xalqının milli ruhunu məhv etmək üçün onun milli-mənəvi dəyərlərinə böyük zərbə vurması göstərilir.

***Açar sözlər:*** *1933-1936-cı illər, repressiyalar, Bakı Dövlət Universiteti, tələbələr, sosial mənşə, əksinqilabçı-trotskiçi-zinovyevçi fəaliyyət, partiya və hökumət*

**Sevda Ismayilova**
Baku State University
PhD in History
https://orcid.org/0000-0003-4450-6153
sevdaismayilova@rambler.ru

# The Repressions of the 1930s and the Students of Baku State University (1933-1936)

**Abstract**

The repressions of the 1930s dealt a great blow to the national and moral values of Azerbaijan. Among higher education institutions, the number of students who were subjected to repression at BSU was greater than others. The article illuminates the fate of students who expressed their independent opinions as victims of the unjust policy of the "democratic and humanist" Soviet regime, their exposure to accusations such as concealing their social origins, counter-revolutionary-trotskyist-zinovievist activities, discrediting the party and government leader, especially Stalin, etc., their expulsion from BSU and the Komsomol, imprison, and various punishments. Cases are commented on, such as the fact that university rectors (especially Balabey Hasanbeyov (who himself was subjected to repression in 1937)) were the organizers of inquiries about students sent to the Special Departments of the regions, party and executive committees, and other addresses. It is shown that the Soviet regime dealt a great blow to the national and spiritual values of the Azerbaijani people in order to destroy their national spirit.

***Keywords:*** *1933-1936s, repressions, Baku State University, students, social origin, counter-revolutionary-trotskyist-zinovievist activity, party and government*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Sovet hakimiyyətinin Azərbaycanda milli-mənəvi sahədə həyata keçirdiyi siyasətin tərkib hissəsi olan, Azərbaycan cəmiyyətinin zəkalarını, düşünən beyinlərini, yaradıcı şəxslərini, özündə azərbaycançılıq fikirlərini daşıyan təbəqəsini məhv etməyi yönəlmiş 1930-cu illər repressiyaları ali məktəb tələbələrindən, xüsusən də Bakı Dövlət Universitetinin (bəhs edilən dövrdə Azərbaycan Dövlət Universiteti) tələbələrindən də yan keçməmişdi. Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arxiv göstəricilərinə görə siyasi əsaslar üzrə SSRİ-də 1937-ci ildə 936.750 nəfər, 1938-ci ildə isə 638.509 nəfər, ümumilikdə 1.575.259 nəfər həbs edilmiş, onların böyük bir qismi isə güllələnmişdi (Lubyanka, 2004, s. 659-650). Dövlət Təhkükəsizlik Xidmətinin arxiv materiallarına görə Azərbaycanda 1 yanvar 1934-cü ildən 1 yanvar 1939-cu ilə qədər 27458 nəfər “əksinqilabi” və “antisovet” fəaliyyətinə görə cəzalandırılmışdır. Bu tələbələr sosial mənşələrini, partiya mənsubiyyətlərini gizlətmək, əksinqilabçı-trotskiçi fəaliyyət, partiya və hökumət rəhbərinə qarşı terror aktları hazırlanması, Stalini nüfuzdan salan fikirlər söyləmək, hakimiyyət çevrilişi, casusluq, və s. kimi ittihamlarla müxtəlif cəzalara məhkum edilmişdilər.

## Tədqiqat

### Tələbələrin sosial mənşələrini gizlətmək hallarına görə sıxışdırılması

Tələbələrin sosial mənşələrini gizlətmək halları ilə bağlı işlərin sayı o qədər artmışdı ki, AK(b)P MK-nın Bakı Komitəsi “Ali təhsil müəssisələri və texnikumlardan sosial mənşəyinə görə xaric edilmişlərin ərizələrinə baxilması üçün komissiya yaradilması haqda" qərar qəbul etmişdi. AK(b)P MK və Bakı Komitəsi-nin katibi M. C. Bağırovun imzası ilə aşağıdakı tərkib təsdiq edilmişdi:

1. M.Şahbazova – XMK
2. Ozerova – AK(b)P MK
3. Həsənbəyova – ADU
4. M. Məmmədov – VPİ
5. Markarova – ALKGİ MK (ARDA: 2). Universitet rektorları (xüsusən Balabəy Həsənbəyov. (O özü də 1937-ci ildə repressiyaya məruz qaldı)) tələbələr haqqında Rayonların Xüsusi Şöbələri, partiya, icraiyyə komitələrinə və digər ünvanlara göndərilən sorğuların təşkilatçısı olmuşlar. Sorğular əsasən bu məzmunda olurdu: tələbənin atası inqilaba qədər, sonra və indi nə işlə məşğul olub; hansı təsərrüfata malik olub; rayonda nüfuzlu şəxsdirmi; mülkədar zümrəsinə mənsubdurmu. (ARDA: 199). Belə tələbələrdən biri ADU-nun fizika-riyaziyyat fakültəsinin tələbəsi Ədhəm Şıxlinski olmuşdu. Rektor B. Həsənbəyov onun sosial mənşəyi ilə bağlı Sənaye Texnikumunun partiya katibinə, AK(b)P Qazax rayon katibinə sorğu göndərmişdi. Onun sosial mənşəyi, təhsildə töhmət alması, əmək intizamını pozması, texnikumun ictimai həyatı ilə əlaqədar olması sorğulanırdı. (ARDA: 23). AK(b)P Qazax rayon katibinə ünvanlanmış sorğudan məlum olur ki, Şıxlinski Ədhəmin atası Mamay Şıxlinski 1918-ci ildə “xalq” tərəfindən xalq komissarı seçilmiş, lakin bu vəzifədə qısa müddət çalışıb ondan “imtina etmişdi”. Bu məlumatların soruşulmasının Şıxlinski Ədhəmin universitetdə saxlanıb saxlanmaması ilə əlaqədar olduğu göstərilir. ADU partiya komitəsinin katibi Qurban Həsənovun məxfi qrif altında AK(b)P VPK-nin katibi Raxmeyevaya yazılı məruzəsində ADU-da partiya əleyhinə müəllim və tələbələr tərəfindən çıxışlar baş verdiyi, sinfi cəhətdən yabançı ünsürlərin universitetə soxulub saxta sənədlərlə keçmişlərini gizlətdikləri bildirilir. Məlumata görə Şıxlinski Ədhəm öz sorğu vərəqində atası Mamay bəyin 1917-1918-ci illərdə Qazax qəzasında komissar olduğunu göstərib. Əslində isə onun atası bəzi partiyalı yoldaşların təsdiq etdiyi kimi, Müsavat partiyasına rəhbərlik edib. Bu tələbədən sosial mənşəyinə görə əlavə sənəd tələb edildikdə (valideynlərinin oktyabr inqilabına qədər məşğuliyyəti haqqında) o, ziddiyyət təşkil edən sənəd təqdim edib. Məruzədə qeyd edilir ki, hazırda həmin keçmiş müsavatçı vəkil, əmi isə Gəncə Beynəlmiləl Pedaqoji Texnikumunda müəllim işləyir (ARDA, 31-32). ADU partiya komitəsinin katibi Qurban Həsənovun həmin məruzəsində fizika-riyaziyyat fakültəsinin digər bir tələbəsi Vəzirovdan bəhs edilir. Vəzirov partiya mənsubiyyəti olmadığı halda ASSR Cavanşir Xalq Təchizat İdarəsi Partiya kollektivindən ona AK(b)P-yə namizəd olması haqda 121 saylı xasiyyətnamə vermişlər. Tələbə isə sorğu vərəqinin “partiya mənsubiyyəti” xanasında 11093

saylı partiya bileti olduğunu göstərib. Yoxlanılmamış məlumatlara görə tələbə Qarabağın bəy ailəsinə mənsubdur. Sonda bu tələbələrə aid müvafiq ölçülər götürüləcəyi bildirilir (ARDA, 31). ADU partiya komitəsinin 14.11.1935-ci il tarixli iclasının qərarı ilə fizika-riyaziyyat fakültəsinin tələbəsi Vəzirovu bəy oğlu olduğu halda partiya və komsomol orqanlarını aldadaraq saxta xasiyyətnamə ilə sosial mənşəyini gizlədərək özünü partiyaya namizəd kimi göstərdiyinə görə sinfi cəhətdən yabançı ünsür kimi ADU-dan xaric etmişlər (ARDA, 6). Elə həmin iclasda seçki hüququndan məhrum edilmiş iri torpaq sahibi, keçmiş bəy oğlu olduğu halda özünü "fəhlə oğlu" kimi təqdim etdiyinə görə fizika-riyaziyyat fakültəsinin digər tələbəsi Mehdi Aslanov da ADU-dan xaric edilmişdir. İclas qərarının maddələrinə görə onların şəxsiyyətinin aydınlaşdırılması və lazımi ölçü götürülməsi üçün materiallar DİXK-yə göndərilməli, 16.11.1935-ci il tarixində isə fakültə tələbələrinin iclasında ADU-dan xaric edilmiş bu tələbələrin məsələsi müzakirə edilməli idi. Məruzəçi tələbələr Həsənova (fizika-riyaziyyat fakültəsi), Slavnıy (tarix fakültəsi), Polyakova (biologiya fakültəsi), Aleksandrova (kimya fakültəsi) təyin edilmiş, Həsənbəyov tarix, kimya fakültəsinə, Mnasakanov fizika-riyaziyyat və biologiya fakültəsinə təhkim edilmişdilər (ARDA: 6). ADU tələbələrinin sosial mənşəyi ilə növbəti sorğulardan biri də yenə rektor Həsənbəyov tərəfindən məxfi qriflə Xızı rayonu icra komitəsinin Altıağac kənd rəhbərinə ünvanlanmışdı. Orada ADU tələbəsi Polyakov İvan Lukiçin sosial mənşəyinin araşdırılması, atası Polyakov Lukanın sovetləşməyə qədər və hazırkı vəziyyəti (yəni indi o kolxozçudurmu, oğlu atası ilə əlaqə saxlayırmı) sorğulanır (ARDA, 29). Altıağac kənd soveti sədrinin 2.III.1935-ci il tarixli arayışında (əlyazma) Polyakov Lukanın qolçomaqlıqdan salınmış olduğu və pravoslav dini şurasının sədri olduğu, oğlunun atası ilə əlaqə saxladığı bildirilir (ARDA, 32). Rektor Həsənbəyovu və gizli hissə müdiri Qritsenkonu bu əlyazma təmin etmir. O, bu dəfə Xızı rayon İcra Komitəsinin sədri Sadıxova məxfi qrifli 16.III.1935-ci il tarixli müraciətində Polyakovun ADU-ya daxil olarkən anketində atasının ticarətçi olduğunu, seçki hüququndan məhrum edildiyini, atası ilə əlaqəsi olmadığını, 1930-cu ildə kəndə gedib ona mənsub olan torpaq sahəsini Stalin adına kolxoza təhvil verdiyin göstərdiyi, ancaq atasının pravoslav dini şurasının sədri olduğunu gizlətdiyi bildirir. Polyakovun atası ilə əlaqəsinin sənədli şəkildə təsdiq edilməsini israr edərək əks halda onun universitetdə qalma məsələsinin qoyulacağını bildirir (ARDA, 30). Xızı rayon İcra Komitəsinin sədri Sadıxovun 25.11.1935-ci il tarixli cavabında Altıağac kənd sovetinin 2.III.1935-ci il tarixli 203 saylı arayışında Polyakov İvan Lukiçin sosial mənşəyinin aydın səciyyələndirildiyi və RİK onun ADU-dan kənarlaşdırılmasını zəruri hesb etdiyi göstərilir (ARDA, 31). Bu sənədlərdən göründüyü kimi tələbələrin sosial mənşələrini gizlətmək hallarına qarşı sıxışdırılması kütləvi hal almışdı. ADU-nun tarix fakültəsinin 11.04.1935-ci il tarixli iclasında ADU-dan xaric edilmiş fizika-riyaziyyat fakültəsinin tələbəsi Hüseynov Məcidin məsələsinə baxılmış, əksinqilabi fəaliyyətinə görə sürgün edilmiş molla oğlu olduğu halda saxta sənədlərlə sosial mənşəyini gizlədərək özünü kolxozçu oğlu kimi təqdim etməsi və ADU rəhbərliyini aldadaraq universitetin proletar tələbələri tərkibinə soxulması bildirilmişdir. Göstərilmişdir ki, o nəinki saxta sənədlərlə sosial mənşəyini gizlətmiş, eyni zamanda heç bir partiya mənsubiyyəti olmadığı halda özünü partiyaya namizəd kimi kimi təqdim etmişdir. Bu məsələdən siyasi nəticə çıxararaq ADU-nun tələbələri tərkibinə nüfuz etmiş ictimai cəhətdən yabançı ünsürlərlə mübarizədə sayıqlığı artırmaq lazım olduğu xüsusilə qeyd edilmişdir. İclasda onun komsomol sıralarından xaric edildiyi bildirilmiş, Stalinin "qolçomağı boynu yoğunların içində yox, müxtəlif maska altında da aşkarlamaq olar" ifadəsini misal gətirərək, Hüseynovun vəziyyətinin də Stalinin dediyinə uyğun olduğu göstərilmişdir. clas iştirakçılarından İbrahimov M.Hüseynovun Azərbaycan radiokomitəsində çalışdığını, özünün partiyaya mənsub olduğunu bildirdirdiyini söyləmişdir. İbrahimov M.Hüseynovun işdən çıxarılması üçün ADU partiya komitəsinin qərarının radiokomitəyə də bildirilməsinin və onun məsuliyyətə cəlb edilməsinin zəruri olduğunu qeyd etmişdir. Tokaryevski isə sinfi düşmənin proletar tələbə mühitinə nüfuz etdiyini, komsomolçu tələbələrin isə 7 ay ərzində sinfi düşməni ifşa etmədiyini bağışlanılmaz hal kimi qiymətləndirmişdir (ARDA, 25). Abdullayev ali məktəblərdə kütləvi-partiya işi haqqında "Pravda" qəzetində dərc edildilmiş məqalədə tələbələr qarşısında ictimai cəhətdən yabançı ünsürlərlə mübarizədə hansı tapşırıqlar qoyuiduğunu vurğulamışdır. Məqaləni dəstəkləyən Ə. Dadaşzadə saxta sənədlərlə ADU-ya daxil olmuş M. Hüseynovun məhkəməyə verilməsini təklif etmişdir. İclasın yekun qərarına görə

M.Hüseynovun saxta sənədlərlə sosial mənşəyini gizlətdiyi, saxtakarcasına özünün partiyaya mənsub olduğunu göstərdiyi üçün rektorluğun onu ADU-dan xaric etməsi qərarı bəyənilmişdir. Qeyd edilmişdir ki, sinfi düşmən hələ axıradək məhv edilmədiyinə görə ADU tələbə və dinləyiciləri inqilabi sayıqlıqlarını artırmalı, özünütənqidlə müxtəlif üsullarla tələbələr arasına soxulmuş antisovet düşmənləri ifşa etməlidirlər (ARDA, 25 arx.).

**“Əksinqilabçı-trotskiçi-zinovyevçi fəaliyyətə, partiya və hökumət rəhbərini nüfuzdan salan fikirlərinə” görə günahlandırılan tələbələr.** Belə “fikirlərinə” görə, məsələsi partiya, tələbə iclaslarına qoyulub universitetdən xaric edilən tələbələrdən biri də ADU-nun fizika-riyaziyyat fakültəsinin ikinci kurs tələbəsi Ələskərov Ənvər Məşədi Salman oğlu olmuşdu. Ən acınacaqlısı o idi ki, bu iclaslarda tələbə haqqında çıxış edib müstəqil fikir söyləyən digər tələbələrin ifadələri də nəzarətə götürülürdü, siyasi səhv sayılırdı. ADU partiya komitəsinin 25.10.1935-ci il tarxli iclasının qərarı ilə fizika-riyaziyyat fakültəsinin ikinci kurs tələbəsi Ələskərov Ənvər Məşədi Salman oğlu ictimai-yabançı ünsür kimi universitetdən xaric edilmişdi (Qərarı ADU partiya komitəsinin katibi Mnasakanova imzalayıb) (ARDA, 244). Bu məsələlər bir qayda olaraq müzakirə üçün tələbə yığıncağına qoyulurdu. Əslində tələbələri “tələbələr bir-birini dostluq münasibətləri və söhbətlərdə öyrənməlidirlər” tapşırığı ilə satqına çevirirdilər. 27.10.1935-ci il tarixli tələbə yığıncağında Ə.Ələskərovun məsələsinin müzakirəsində həmin fakültənin tələbəsi Salamov Ə.Ələskərovun yabançı ünsürün oğlu kimi ADU-dan xaric edilməsi və sonrakı işdə sinfi sayıqlığın yüksəldilməsi, lazımi tədbirlər görülməsinin zəruriliyindən bəhs edərək “balıq başından iylənər” ifadəsini işlətmişdi. Bu ifadəsinə görə Salamovdan yazılı izahat alınmış, o da bu ifadə ilə qətiyyən ali orqanları nəzərdə tutmadığını, universitetdə sinfi-yabançı ünsürlərin aşkarlanması üçün belə dediyini israr etmişdi. Məruzəçi Babayev isə Salamovu böhtanlayaraq onun sinfi mübarizəni guya yarış adlandırdığını bildirmişdi (ARDA, 243). Sovet repressiya maşınının məsələni sonlandırması üçün tələbə yığıncağına məruzəçi təyin edilmiş partiya üzvləri Nəbiyev, Babayev, Əzimzadənin ADU partiya komitəsinin katibi Mnasakanovaya məlumatı qəbul edilmişdi.Tələbə Salamovun bu nəlumatda (31.10.1935) necə günahlandırıldığına nəzər salaq: “Tələbə Salamov müzakirələrdə çıxış edərək məsələnin ümumi yığıncağa çıxarılmasını qınayaraq bildirdi ki, bu tələbələri bir-birinə qarşı qoyur, çəkişməyə səbəb olur. Sayıqlığı ancaq xüsusi briqadalarla həyata keçirmək olar. Ələskərovun universitetdə qalması səbəbi isə, yalnız çürümüş ADU rəhbərliyində ola bilərdi. Yəni “balıq başından iylənər”. 7 nəfərin çıxış edib Salamovu qınamasından sonra da o çıxış edərək bildirdi ki, bizim çıxışlarımız özünütənqidin boğulmasıdır”. İclasın sonunda Salamovdan tələb edilmişdi ki, öz çıxışını yazılı şəkildə tərtib edib, ADU partiya komitəsinin katibinə təqdim etsin (ARDA, 242). ADU partiya komitəsinin katibi Mnasakanovanın AK(b)P məktəblər şöbəsinin rəhbəri İsmayılova və AK(b)P Voroşilov RK ikinci katibinə göndərdiyi təqdimatında (IV.1936) “tələbələr bir-birini dostluq münasibətləri və söhbətlərdə öyrənməlidirlər” tapşırığına əməl edən (ARDA, 243) tarix fakültəsinin I kurs tələbəsi Q. Sadıqovun öz tələbə yoldaşı Sərvər Bədəlbəyli haqda məlumatı əks olunub.Məlumata görə S. Bədəlbəyli tələbələr arasında Trotskinin fikirlərini təbliğ etmiş, “Trotskinin kitabına malik olmadan onun yaradıcılığı haqqında tənqidi fikir söyləyə bilmərəm” söyləmiş, “əksinqilabçı-millətçi” çıxışlar etmişdir. Millətçi təbliğat aparan tarix fakültəsinin II kurs tələbəsi Qaziyevlə daim əlaqədə olmuşdur (məlumata görə Qaziyev tarix fakültəsi tələbələrinin kafedraya nümayəndə seçkisində iclası iki yerə bölərək türklərin türk namizədə, rusların da rus namizədə səs verməsi kimi şovinist təkliflər edib. Bu iclasda fakültə partiya təşkilatı katibi Tyutin Qaziyevə etiraz edib, onu qrup həmkarlar təşkilatı katibliyindən çıxarıblar) (ARDA, 25-26). Tarix fakültəsinin I kurs tələbəsi Qara Sadıqovun tələbə yoldaşı Sərvər Bədəlbəyli haqda ADU partiya komitəsi komissiyasına məlumatından: “Qızıl Ordanın hakimiyyəti hazırkı vaxta qədər qalsa idi, Azərbaycan Ordanın nüfuzu altında olardı və türklər mədəniyyətcə irəlidə olardılar. Lakin Qızıl Orda çarizm tərəfindən məhv edildiyinə görə Azərbaycan geridə qaldı. Əgər Azərbaycan İran və ya Türkiyə hakimiyyəti altında olsa idi, o zaman Azərbaycan türklərinin mədəni səviyyəsi daha üstün olardı, nəinki çarizm dövründə və hazırda. Buna görə də türkləri məktəblərə az qəbul edirlər, ADU-nun tarix fakültəsində də onların sayı azdır. Tarix fakültəsinin iki qrupa (türk və rus) ayrılması da türklərin ADU-dan xaric edilməsi məqsədini güdür. Mən istəyirəm ki, Azərnəşr Trotskinin kitablarını buraxsın ki, hamı oxusun, tənqid edə bilsin.Yeri gəlmişkən,

yol.Tixomirov da bu haqda bilir". O,Trotskinin kitablarıı haqqında qrupda məlumat vermişdi və bunu ancaq mənə deyib. Komsomol iclasında da bildirdi ki, hazırda sinfi mübarizə yoxdur (ARDA, 27). Hətta amansız sovet rejiminin bütün ideoloji göstərişlərinə dəqiq əməl edən tələbə Sadıqov da bütün "səylərinə" baxmayaraq, Mnasakanova tərəfindən Bədəlbəyli haqqında vaxtında məlumat verməməkdə günahlandırılır, bolşevik sayıqlığını itirdiyinə görə Sadıqova partiya cəzası verilməsi təklif edilirdi (ARDA, 25). Nəticədə, AK(b)P katibi M. Bağırov tərəfindən ADU rektoru Həsənbəyova işdən çıxarılma təhdidi ilə xəbərdarlıq edilmiş, professor-müəllim heyətinin tərkibinə yenidən baxılması, tələbələr arasında ideya-siyasi və beynəlmiləl tərbiyəni gücləndirmək tapşırılmış, tarix fakültəsinin dekan müavini Baba Əsgərov tutduğu vəzifədən kənarlaşdırılmışdı (ARDA, 21-21 arx.).

ADU partiya komitəsinin 26.11.1935-ci il tarixli büro iclasında Əli Bayramov adına 4 saylı tikiş fabrikinin mühafizə rəisi, ADU-nun Hazırlıq kursları tələbəsi Kazakovun Hazırlıq kurslarından xaric edulməsi məsələsi qoylmuşdu. Müstəqil fikrini söyləyən tələbənin aqibəti "demokratik və humanist" sovet rejiminin ədalətsiz siyasətinin qurbanı olmuşdu. İclasın qərarında göstərilirdi: 1. Kazakov deyib: "Stalin öz inqilabı fəaliyyətinə Parapetdən başlayıb". Bu, partiyanın sevimli rəhbərinə qarşı trotskiçi- zinovyevçi Kazakovun çox həyasız və alçaq hücumudur; 2. Əli Bayramov adına fabrikin komsomol komitəsi qarşısında Kazakovun komsomoldan xaric edilməsi məsələsini qoymaq; 3. Kazakovun Əli Bayramov adına tikiş fabrikində mühafizə rəisi işləməsini yolverilməz hesab etmək. Fabrikin müdriyyəti qarşısında Kazakovun dərhal fabrikdən çıxarılması məsələsini qoymaq; 4. Kazakova aid materialları onun sonrakı siyasi simasının aydınlaşdırılması və ölçü götürülməsi üçün XDİK-ə vermək.

Protokoldan çıxarışı ADU partiya komitəsinin katibi Mnasakanova və məxfi şöbə rəisi Qritsenko imzalamışlar (ARDA, 19).

## Nəticə

Beləliklə, 1930-cu illərdə sovet işğal rejimi onu təmin edəcək manqurt kadrlar hazırlanması siyasəti həyata keçirmiş, tələbələri "tələbələr bir-birini dostluq münasibətləri və söhbətlərdə öyrənməlidirlər" tapşırığı ilə satqına çevirmiş, müstəqil fikrini söyləyən tələbələrin aqibəti "demokratik və humanist" sovet rejiminin ədalətsiz siyasətinin qurbanı olmuş, onlar sosial mənşələrini, partiya mənsubiyyətlərini gizlətmək, əksinqilabçı-trotskiçi-zinovyevçı fəaliyyət, partiya və hökumət rəhbərini, xüsusən Stalini nüfuzdan salmaq və s. kimi ittihamlarla ADU-dan, komsomol sıralarından xaric edilmiş, azadlıqdan məhrum edilmiş, müxtəlif cəzalara məhkum edilmişdilər. Sovet rejimi Azərbaycan xalqının milli ruhunu məhv etmək üçün onun milli-mənəvi dəyərlərinə böyük zərbə vurmuşdu.

## Ədəbiyyat

1. ARDA, f. 1640, siy. 2, iş 9
2. ARDA, f. 1640, siy. 2, iş 4
3. ARDA, f. 1640, siy. 2, iş 4
4. ARDA, f. 1640, siy. 2, iş 4
5. ARDA, f. 1640, siy. 2, iş 4
6. ARDA, f. 1640, siy. 2, iş 5
7. ARDA, f. 1640, siy. 2, iş 5
8. ARDA, f. 1640, siy. 2, iş 4
9. ARDA, f. 1640, siy. 2, iş 4
10. ARDA, f. 1640, siy. 2, iş 4
11. ARDA, f. 1640, siy. 2, iş 4
12. ARDA, f. 1640, siy. 2, iş 4
13. ARDA, f. 1640, siy. 2, iş 5
14. ARDA, f. 1640, siy. 2, iş 4
15. ARDA, f. 1640, siy. 2, iş 4
16. ARDA, f. 1640, siy. 2, iş 4

17. ARDA, f. 1640, siy. 2, iş 9
18. ARDA, f. 1640, siy.2, iş 4
19. ARDA, f. 1640, siy.2, iş 9
20. ARDA, f. 1640, siy.2, iş 9
21. ARDA, f. 1640, siy.2, iş 9
22. ARDA, f. 1640, siy.2, iş 5
23. Əziz, B., Əmiraslanov, V. (2024). *Bakı Dövlət Universitetinin repressiyaya məruz qalmış müəllim və tələbələri* (1937-1940-cı illər). I hissə. "Çapar" yayınları.
24. Lubyanka. (2004). *Stalin i qlavnoye upravleniye qosbezopasnosti NKVD*. 1937-1938. Pod red.akademika A. N. Yakovleva. Izd-vo "Materik".

Daxil oldu: 02.10.2024
Baxışa göndərildi: 08.11.2024
Təsdiq edildi: 24.12.2024
Çap olundu: 30.01.2025